# “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

“Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 348; 1999, N 11, maddə 609; 2000, N 11, maddə 776; 2001, N 9, maddə 576, N 12, maddələr 733, 736; 2002, N 12, maddə 706; 2004, N 7, maddə 505, N 12, maddə 976; 2005, N 1, maddə 2, N 12, maddə 1082; 2006, N 11, maddə 923, N 12, maddə 1018; 2007, N 1, maddə 4, N 12, maddə 1193; 2008, N 2, maddə 49, N 4, maddə 254, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 970; 2010, N 4, maddə 276, N 11, maddə 949; 2011, N 10, maddə 883; 2013, N 11, maddə 1284, N 12, maddə 1487; 2014, N 10, maddə 1171) 14-cü maddəsinin üçüncü hissəsinin ikinci bəndindən sonra aşağıdakı məzmunda “Qeyd” hissəsi əlavə edilsin:

“Qeyd: Bu maddənin üçüncü hissəsinin ikinci bəndinin məqsədləri üçün əmək qabiliyyətli şəxslər dedikdə I və II qrup əlillər, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar istisna olmaqla, 15 yaşından “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər başa düşülür.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2016-cı il*